**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN NƏSRİNDƏ MODERNİZM

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və təhlil

Elm sahəsi: filologiya

İddiaçı: **Dilarə Şamil qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmlər doktoru, professor<br>**Tahirə Qəşəm qızı Məmməd** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Rafiq Manaf oğlu Novruzov** |
| | filologiya elmləri doktoru<br>**Rəhim Nadir oğlu Əliyev** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Yeganə Atamoğlan qızı Abdullayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>_______________ | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi:<br>_______________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri:<br>_______________ | filologiya elmləri doktoru, professor<br>**Məmməd İrac oğlu Əliyev** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatı ilə inteqrasiyası, ayrı-ayrı mərhələlərdə ümumdünya ədəbi prosesinin qabaqcıl ənənələri ilə ayaqlaşması məsələsi ədəbi-nəzəri fikrimizin diqqət mərkəzində saxlanan aktual problemlərindəndir.

Azərbaycan ədəbiyyatı tarixində müxtəlif üslublar, təmayül və cərəyanlar mövcud olmuşdur. Azərbaycan ədəbiyyatında maarifçi realizm, tənqidi realizm, sosialist realizmi, romantizm ədəbi cərəyanları haqqında kifayət qədər yazılmasına baxmayaraq, Azərbaycan modernizmi haqqında deyilən fikirlər çox azdır, ya da natamamdır. Azərbaycan ədəbiyyatında modernizm və postmodernizmin mövcudluğu fikri çox az tədqiqatlarda öz əksini tapmışdır. Akademik Nərgiz Paşayevanın "Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)"[1] filologiya elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyasında 60-cı illər ədəbiyyatında modernizmin struktur elementlərindən bəhs edilir, onların stabil xarakter daşıması haqda elmi müddəalar irəli sürülür. Modernizmin ayrıca bir cərəyan kimi mövcudluğu, təzahür prinsiplərinin üzə çıxarılması və sistemləşdirilməsində Akademik İsa Həbibbəylinin rolu danılmazdır. Akademikin "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri"[2] monoqrafiyası bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Modernizm ədəbi cərəyanı Azərbaycan ədəbiyyatşünaslığında fərqli yönlərdən araşdırılmış, Qorxmaz Quliyev, Pərvanə İsayeva, Asif Hacıyev, Cavanşir Yusifli, Yeganə Abdullayeva və başqa nəzəriyyəçilərin tədqiqatlarında dünya ədəbiyyatında bu cərəyanın xarakteristikası özünəməxsus prinsipləri, ideya-estetik xüsusiyyətləri və təmsilçiləri haqda məlumat verilmişdir.

---

[1] Paşayeva, N. Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında):/ fil.e.d. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya / ─ Bakı: 2004. ─ s. 9-157

[2] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / ─ Bakı: Elm, 2019. ─ s. 152-189

1960-80-ci illər Azərbaycan nəsrinin inkişafında son dərəcə əhəmiyyətli ədəbi hadisələrlə səciyyələnən, böyük sənət nailiyyətləri ilə yadda qalan bir mərhələdir. İctimai həyatın bütün sahələrində aydın nəzərə çarpan yeniləşmə isə mövcud siyasi rejimin, sosial gerçəkliyin dərindən dərki və bədii fikirdə fərqli analaitik təzahürü ilə şərtlənir.

60-cı illərdə gənclərin ədəbiyyata kütləvi axını o illərin nəsr prosesi üçün səciyyəvi əlamət idi. "Yeni Azərbaycan nəsri", "yeni dalğa", "yeni nəsil" ifadələrini də bizim leksikona elə onlar daxil elədilər. Bütün təxminliyi, şərtiliyi ilə bərabər həmin ifadələr bu nəslin müasir milli nəsrə gətirdiyi modernizm cərəyanını istər məzmun, ideya, mövzu yeniliyini, istərsə də forma, yaxud, struktur baxımından təzəliyi ehtiva və ifadə edə bildi. Üzərindən 60 ildən çox vaxt keçməsinə baxmayaraq, "altmışıncılar" termini bu gün də ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıqda işləkdir və bu fenomenin elmi şərhinə yeni münasibət olduqca vacibdir.

Anar, Elçin, Sabir Əhmədli, Rüstəm İbrahimbəyov, Maqsud İbrahimbəyov, Natiq Rəsulzadə və digər nasirlər onlara zorla qəbul etdirilmiş dəyərlərdən imtina etməyə cəhd etmiş və yaradıcılıqlarının müəyyən mərhələsində buna nail olmuşdular. 60-80-ci illərdə yazılmış əsərlərin arxitektonikasına diqqət etsək görərik ki, bu nümunələr sosrealizmin tələb və prinsiplərinə cavab vermir, bu əsərlərə sosrealizmin təhlil prinsipləri ilə yanaşmaq yanlışdır. Sosrealizmin qəliblərinin çökdüyü hər məqamda müşahidə olunan, görürünən spesifik xüsusiyyətlər öz dəyərləndirilməsini modernizmdə tapır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyada Azərbaycan nəsrinin inkişafında son dərəcə əhəmiyyətli bir mərhələ olan 1960-80-ci, eləcə də onun davamı kimi 90-cı illərin nəsri və modernizm ədəbi cərəyanı araşdırma obyektidir. Bu dövrdə ədəbiyyata gələn " yeni nəsil"lə – modernistlərlə yanaşı, daha təcrübəli ədəbi nəsillərin yaratdıqları örnəklər nəsrin bədii səviyyəsini müəyyənləşdirir. Nəsrin dərhal nəzərə çarpan ideya-bədii keyfiyyətləri, nəzəri qənaət formalaşdıran struktur yenilikləri dissertasiyanın araşdırma obyektinə çevrilmişdir. Bədii nəsrin janr, süjet, kompozisiya, üslub axtarışlarına dair tipoloji ümumiməlşdirmələr zamanı müasir dünya nəsrinə, ədəbiyyatşünaslığına müraciət faktları, istinadlar da zəruri

olmuşdur.

Modernizmin təşəkkülü və inkişafı, o cümlədən 1960-80-ci və 90-cı illər Azərbaycan nəsrində təzahürü, onun müxtəlif yaradıcılıq məsələlərinin dəyərləndirilməsi bir bütöv halında tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Ədəbi cərəyanlar, təmayüllər və ya istiqamətlər milli ədəbiyyatlarda eyni xronoloji zamanda meydana gəlməmişdir. Müasir ədəbiyyatımızda 1960-80 -ci illər nəsrinin yerini müəyyənləşdirməkdə, onun inkişafında modernizm ədəbi cərəyanının rolunu aşkarlamaq, bu əsasda nəsrin inkişaf prosesini, dinamikasını bir kompleks halında izləmək, həmin nəsrin ədəbiyyatşünaslıqda bitkin elmi mənzərəsini yaratmaq tədqiqatın əsas məqsədidir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı problemlərin elmi həlli konkret vəzifələr kimi qarşıya qoyulur:

– XX əsrin 60-80-ci illərində ictimai-siyasi proseslərin bədii şüura təsiri nəticəsində modernizm ədəbi cərəyanının yaranması və bunun ilk nəzəri izahına baxış;

– Modernizm ədəbi cərəyanı probleminə ədəbi, nəzəri, fəlsəfi baxışlar sistemini araşdırıb ümumiləşdirmək;

– Modernizmin bədii təhkiyə texnikası olan “şüur axını”nın səciyyəvi xüsusiyyətlərini araşdırmaq;

– 60-80-ci və 90-cı illərdə Azərbaycan nəsrinin inkişaf qanunauyğunluqlarını Şərq-Qərb modernizmi müstəvisində araşdırmaq;

– Azərbaycan modernizminin təşəkkülü və inkişaf problemlərinə tiploji yanaşma;

– Modernizm və ideologiya məsələlərini fərqli rakurslardan dəyərləndirmənin səciyyəsini aydınlaşdırmaq;

– Modernizm ədəbi cərəyanının Azərbaycan nəsrində davamını tapdığı ənənələrin zaman və sosial mühit müstəvisində açılışı;

– Bədii nəsrin aparıcı janrları və modernizm münasibətlərini tədqiqata cəlb etmək;

**Tədqiqatın metodları.** Dissertasiyada ədəbi prosesin konkret

bir cərəyanının nəsrdə təzahürü tarixi-müqayisəli, müqayisəli-tipoloji və struktur-semiotik metodlarla təhlil edilmişdir. Bu metodlar mövzunu bütövlükdə tarixi-ədəbi proseslə müasir dövrün sosial-siyasi hadisələrinin obyektiv qanunauyğunluqları, qarşılıqlı əlaqələri, fərd və dünya münasibətlərini araşdırmağa imkan vermişdir.

Tədqiqat işində analiz-sintez metodunun imkanlarından istifadə edilmişdir. Azərbaycan, dünya, xüsusən rus ədəbiyyatşünaslarının nəsrin müxtəlif problemləri ilə bağlı nəzəri konsepsiyaları, ədəbiyyat tarixi və ədəbiyyatşünaslığımızın aparıcı elmi qənaətləri də metodoloji əsas kimi götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– XX əsrin əvvəllərində dünya ədəbiyyatında modernist nəsrin hərəkətini izləyib onun mahiyyətindəki başlıca yeniliklərə əsaslanaraq belə qənaətə gəlirik ki, Azərbaycan ədəbiyyatının "60-cılar" nəsri modernizm ədəbi cərəyanına aiddir;

– 60-80, eləcə də 90-cı illərdə "şüur axını" təhkiyə texnikasının Azərbaycan nəsrində işlənmə səviyyəsinin əhatəliliyi və genişliyi ilə fərqlənir;

– Azərbaycan modernist nəsrində Şərq-Qərb ənənələri sintezləşmiş haldadır;

– Modernizmin tipoloji xüsusiyyətləri Azərbaycan nəsrinin fərqli janrlarında kompleks halda müşahidə olunur;

– Azərbaycan modernist nəsri sovet ədəbi məkanında formalaşdığı üçün digər SSRİ xalqları ədəbiyyatında olduğu kimi sosialist ideologiyaya qarşı yönəlmişdir;

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində 60-80-ci illər nəsrinin tədqiq-təhlil materialları əsasında nəsr janrlarına, süjet-kompozisiya qanunauyğunluqlarına verilən tipoloji təsniflər, üslub axtarışları, bədii dil eksperimentləri ilə bağlı nəzəri qənaətlər nəsrin struktur təkamülünü dəyərləndirmək imkanları haqqında yeni elmi təsəvvür yaradır.

–Dissertasiyada 1960-80-ci və 90-cı illər Azərbaycan nəsrinin ədəbiyyatşünaslıqda elmi mənzərəsi ilk dəfə modernizm ədəbi cərəyanı rakursundan tədqiqat obyektinə çevrilmişdir;

–Azərbaycan modernizmini bir tip olaraq tədqiq edilmiş, dünya

ədəbiyyatı, sovet ədəbi məkanı Şərq-Qərb kontekstindən dəyərləndirilmişdir;

–Disssertasiyada Azərbaycan nəsr nümunələri, modernist ədəbi-estetik düşüncə kontekstində tədqiqata cəlb edilərək, nəsrin xarici təsvirçilikdən uzaqlaşaraq mənəvi-psixoloji dəyişikliyi, çıxılmaz vəziyyətlərin doğurduğu böhran hallarını ön plana çəkməsi, fərdin özgələşməsi, tənhalıq kimi problemlər üzə çıxarılmışdır;

– Ədəbi qəhrəmanın mənəvi dünyasına, daxili və sosial konfliktlərinə, insanın mahiyyətinə, yaddaş qatlarına olan marağın ifadə texnologiyası Azərbaycan nəsr mətnlərində araşdırılıb sistemləşdirilmişdir;

1960-80-ci illər Azərbaycan nəsrinin ədəbiyyatşünaslıqda elmi mənzərəsinin ilk dəfə modernizm ədəbi cərəyanı rakursundan tədqiqat obyektinə çevrilməsi və inkişaf proseslərinin aşkarlanması problemin ciddiliyi qədər yeniliyini də şərtləndirir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın elmi-nəzəri dəyəri, ilk növbədə, modernizm ədəbi cərəyanı və Azərbaycan nəsrinin XX əsrin konkret bir zaman kəsiyində inkişaf təmayülləri ilə bağlı nəzəri təsəvvürləri bütövləşdirməsindədir.

Araşdırma elmi-nəzəri münasibət kontekstində modernist nəsrimizin inkişaf prosesini izləməkdə və konkret mərhələlərinin tarixini yazmaqda faydalı ola bilər.

Tədqiqat işi ötən əsrin 60-80 və 90-cı illərində Azərbaycan ədəbi-mədəni gerçəkliyini dürüst anlamaq və dəyərləndirməkdə əhəmiyyət kəsb edə bilər. Ayrı-ayrı sənətkarlarımızın yaradıcılıq yolunu, nasir kimi yüksəlişini izləmək baxımından da gərəkli ola bilər.

Dissertasiya yetərincə təcrübi əhəmiyyətə də malikdir. Ali və orta ixtisas məktəblərinin filoloji yönümlü fakültələrində, seçmə fənlərin tədrisində, müasir Azərbaycan ədəbiyyatına dair mühazirə və seminarlarda ondan istifadə etmək olar. Dissertasiya ali və orta məktəb müəllimləri, tələbələr, ədəbiyyat nəzəriyyəsi, ədəbi-nəzəri fikir tarixini tədqiq edən doktorantlar, magistrlər üçün yararlı mənbə ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə

yetirilmişdir  Dissertasiyanın ayrı-ayrı fəsil və paraqrafları və sonda iş bütövlükdə həmin şöbənin  iclaslarında müzakirə olunmuşdur.

Tədqiqatın əsas müddəaları və nəticələri doktorantın Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi, həmçinin xarici ölkələrin müvafiq nüfuzlu elmi məcmuələrində dərc olunan məqalələrində, iddiaçının beynəlxalq və respublika səviyyəli elmi konfranslardakı məruzə və çıxışlarının çap olunduğu müxtəlif tematik toplularda əks olunmuşdur.

**Dissertasiya işinin  yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya giriş (12096 şərti işarə), üç fəsil ( birinci fəsil – 71968 şərti işarə; ikinci fəsil – 73679 şərti işarə; üçüncü fəsil – 72428 şərti işarə), nəticə (5400 şərti işarə)  və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi – 231666 şərti işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin “**Giriş**” hissəsində AAK-ın tələblərinə uyğun olaraq, mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti aprobasiya və stukturu, yerinə yetirildiyi həcm  göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **“Modenizmin ədəbi-estetik prinsipləri”** adlanır və üç paraqrafdan ibarətdir. “**Modernizmin fəlsəfi-estetik, ədəbi hadisə kimi təşəkkülü”** adlı birinci paraqrafda modernizmin formalaşması, inkişafı və özünəməxsusluqları haqqında bəhs edilir. Modernizmin dünya ədəbiyyatı və mədəniyyətində yerinin, xüsusiyyətlərinin araşdırılmasına çoxsaylı tədqiqatlar həsr olunmuşdur. Bu paraqrafda məqsədimiz modernizmin fəlsəfi məzmunu, onun ədəbiyyatda təzahürünü müəyyənləşdirən aspektləri, prinsipləri sistemləşdirib təqdim etmək və tədqiqat predmetinə yanaşma rakursuna aydınlıq gətirməkdir.

Modernizmin təşəkkülü ədəbiyyatda müxtəlif meyllərin baş qaldırması ilə xarakterizə olunmuşdur. Ədəbiyyatda Ceyms Coys, Alber Kamyu, Frans Kafka, Xose Luis Borxes, Jan Pol Sartr şəxsiyyətin özgələşməsi faciəsinin, ünsiyyətsizliyin, humanizmin dağılmasının, şüur axını üslubunun, kollajın və s. istifadəçiləri idi.

Modernizmin əsas cəhəti fərdiyyətçilik, üslub və novatorluğun ənənələr üzərində üstünlüyüdür. Bu cərəyanının nümayəndələri düşünürlər ki, dünyada nizama salınmış, məntiqli, təbii, dolğun, sıralanmış, səhmana salınmış məkan yoxdur. Modernizmin təzahür xüsusiyyətləri kimi avanqardizmi, kubizmi, sürrealizmi, abstraksionizmi, impressionizmi, pozitivizmə, irrasionallığa meyilliliyi, ehkamların dəyişdirilməsini, mövcud ənənələrin dağıdılması və ya onlara yeni dəyərlər yüklənməsini, klassik dəyərlərin bərpasını və başqa əlamətləri göstərmək olar.

Dissertasiya işinin birinci fəslinin ikinci paraqrafı **“Şüur axını” modernizmin əsas texnologiyalarından biri kimi” adlanır.** “Şüur axını” XX əsr modernist ədəbiyyatında assosiasiyaların, nizamsızlığın qovuşması, sintaksisin qırılması vasitəsilə şüurun mental həyatının bilavasitə canlandırılmasını iddia edən üslubdur.

Ədəbiyyatda “şüur axını” təhkiyə texnikası ingilis yazıçısı Ceyms Coysun adı ilə bağlıdır. Bu üslubunun ilk və aparıcı nümayəndələri Ceyms Coys və Marsel Prust hesab olunur.

Ceyms Coys ardıcıl təhkiyə prinsiplərinə riayət etməyərək ədəbiyyata yeni üslub gətirmiş, xarakterlərin fəaliyyətini, hiss, duyğu və həyəcanlarını “şüur axını” nın formaları olan daxili monoloq, müxtəlif şüur assosiasiyaları vasitəsilə təqdim etmişdir. Bununla belə, Avropadan bu və ya digər şəkildə bütün dünya ədəbiyyatına yayılmış “şüur axını” texnikası Azərbaycan ədəbiyyatının da diqqətindən kənarda qalmamışdır. 60-cı illərdən etibarən nəsrimizdə “şüur axını” nın bədii formalar sırasına çıxmasında daxili monoloqun bir növü olan soliloqun xüsusi rolu var. “Şüur axını” özü ilə şifahi nitqi, daxili monoloqu yamsılayan formanı təqdim edir. Bu iki bədii ifadə forması arasında müqayisələr aparmaq “şüur axını” priyomunun özünəməxsus xüsusiyyətlərini araşdırmağa yaxından kömək edir. Soliloqda qəhrəman gördüyü, bilavasitə iştirak etdiyi və ya eşitdiyi hadisə barədə oxucuya söhbət açır. Burada nitq sadəliyi, ardıcıllığı və nizamlığı ilə

diqqəti cəlb edir. “Şüur axını”nında isə nitq və ya düşüncə mürəkkəb, qeyri-ardıcıl və “məntiqsiz” ola bilər. Bu baxımdan Afaq Məsudun “İzdiham” romanı diqqəti cəlb edir. Əsərdə fantastik görünən absurd fikirlər qəhrəmanın şüurunda canlanır. Bir – birinə təzad təşkil edən qarmaqarışıq düşüncələr əsas mətləbin açılmasına zəmin hazırlayır. *“Qara geyimli adamlar yaxınlaşdıqca izdihamın uğultusu eşidilməyə başlayırdı...”*[3] Qəhrəmanın daxilində baş verən bütün real və şüuraltı impulslar bir fəvvarə sayağı üzə çıxır və roman boyu bizi fərqli boyutlara aparır. Burada “şüur axını” priyomundan personajın düşdüyü psixoloji vəziyyəti əks etdirmək məqsədi üçün istifadə olunsa da, müəllif romanda baş verənləri nə açıqlayır, nə də səbəb-nəticə əlaqəsi üzərindən qiymətləndirir. “İzdiham”da realist mətnlərdə olduğu kimi süjet xəttinin ardıcıl inkişafını izləmək mümkün deyil.

“Şüur axını” aşağıdakı formalarda təzahür edə bilər:

*Personajın özü haqqında olan düşüncələri*. Burada nitq olmayan danışıq vasitəsilə verilir. Obrazın daxili aləmi, personajın davranış formulları bu yolla aşkarlanır. Bu tipli daxili monoloqlar obrazın dilindən söylənir. Bu monoloqun nə dinləyicisi, nə də müsahibi var. Personaj fikrindən keçənləri öz-özünə, ürəyində danışır. Burada yazıçı ətraf aləm, insanlar və hadisələr haqqında fikirlərini kompleks şəkildə personajın “söylənməyən” daxili nitqinə sığışdırır. Məsələn, Anarın “Macal” povestində qəhrəman hadisələr içərisində təqdim edilməkdən daha çox, hadisələr baş qəhrəmanın, Fuadın qavrayışında təqdim olunur, bədii mətn, əsasən, onun düşüncələri üzərində qurulur. Ramiz Rövşənin “Daş” povestində daxili nitq I şəxsin şüurundan süzülür, təbiətin və cəmiyyətin bir tərəfinə işıq tutur. Burada nitq bəzən rabitəsiz olsa da, semantik əlaqə pozulmadan qalır. Baş qəhrəman Müslüm kişinin xarakteri ani, şüuraltı bir epizodla, daxili nitq vasitəsilə açılır.

*Təfəkkür vasitəsi kimi çıxış edən xüsusi daxili nitq*. Burada xüsusi obrazlar, kodlar, sxemlər, predmetlərlə ifadə olunur. Misal üçün, Anarın “Qırmızı limuzin”, Elçinin “Qatar.Pikasso.Latur.1968”, Afaq Məsudun “II İohan” əsərlərində müxtəlif səviyyəli kodlaşdırma,

[3] Məsud, A. Seçilmiş əsərləri / –Bakı: Elm və təhsil, –2012. – s. 2

simvollaşma meyli dəqiq görünür. Bu meyil əsərin psixoloji kontekstində, obrazların və personajların daxili nitqində də özünü göstərir.

Beləliklə, ədəbiyyatda hər bir yeni dövrün həllinə can atdığı əsas problem, insan və cəmiyyətin qarşılıqlı münasibəti problemidir. XX əsrdə bu proses ictimai-siyasi və ideoloji mübarizənin gərginliyi ilə yeni bir mərhələyə qədəm qoydu. Bu problemi modernistlər "şüur axını" priyomu ilə özünəməxsus tərzdə həll etməyə çalışıblar. Müxtəlif ədəbiyyatlarda "şüur axını" təhkiyə texnikasının imkanlarından istifadə olunması təbiidir, bu cür forma müxtəlifliyi personajın özünün bilavasitə ifadə yollarının rəngarəngliyi ilə bağlıdır. Azərbaycan ədəbiyyatında şəxsiyyətin xarakteri və aqibəti arasında təzadın aydın şəkildə göründüyü müxtəlif əsərlərdə bu priyomdan özünəməxsus şəkildə istifadə edilmişdir.

Fəslin üçüncü paraqrafı **"Azərbaycan nəsri Şərq-Qərb modernizmi kontekstində"** adlanır.

Vahid dünya ədəbiyyatı fərqli regionlara ayrılsa da, hər zaman ənənə alış-verişində olmuşdur. Şərqdən alınan ənənəni Qərb özünə, Qərbdən gələni isə Şərq özünə uyğunlaşdırmışdır. Əsil zənginlik, yenilik də məhz bu zaman, özünü qorumaqla inteqrasiya yaşamaqda üzə çıxır. Bu mənada Azərbaycan ədəbiyyatı üçün modernizm məktəbi Qərb olmaqla bərabər, həm də özündən qabaq bu təcrübəni yaşayan Şərq, xüsusən türk ədəbiyyatı idi. XX əsrin başlanğıcında Azərbaycan ədəbiyyatı modernizm istiqamətində irəliləmək üçün çox ciddi ədəbi bazaya malik idi: xüsusən Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı və Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığı timsalında. Lakin, sovet inqilabı ədəbiyyatımızda yeni üzə çıxan elementlərin inkişafının qarşısını aldı və onu gecikdirdi.

Məlum olduğu kimi, müharibələr, inqilablar, ictimai formasiyaların dəyişimi hər şeydən əvvəl fərdlərin faciəsi kimi xarakterizə olunurdu və bu cür fəlakətlər öz ədəbiyyatını yaratmalı idi. Bu paraqrafda Amerika ədəbiyyatında müşahidə edilən "itirilmiş nəsil" ədəbiyyatı, Şərq ədəbiyyatından Kobe Abenin yaradıcılığından, eyni zamanda türk ədəbiyyatından Əhməd Həmdi Tanpınar, Peyami Səfanın yaradıcılğına müraciət etmişik. Orxan Pamukun "Cövdet bəy

və oğulları" romanını Yusif Səmədoğlunun "Qətl Günü" romanında diqqəti cəlb edən sürrealist anlamlardan, süjet-kompozisiya yaxınlığından, simvol və detallardakı oxşarlıqlardan bəhs etmişik.

60-80-ci illərdə bədii ədəbiyyatımızda xronikal, konsentrik və retrospektiv süjet tiplərinə üstünlük verilməsinə başlandı. Bu illərdə ictimai şüurda baş verən əsaslı dəyişikliklər bütün sovet ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında, əvvəlcə poeziyada öz əksini tapdı. Nəsrdə bu dəyişikliklərin əks etdirilməsi üçün daha bir neçə il tələb olundu.

1960-80-ci illər Azərbaycan nəsrinin sənətkarlıq xüsusiyyətləri içərisində ilk növbədə janr məsələsi diqqəti cəlb edir. Bu mərhələdə milli nəsrimizin daha yığcam janrlara keçid etdiyini görə bilirik. Akif Hüseynov nəsrin mövzu, ideya, problematika, bədii qəhrəman yeniliyi ilə yanaşı, sənətkarlıq cəhətdən də kamilləşdiyini əsaslandıran tədqiqatında onun janr xüsusiyyətlərinə diqqəti cəlb edir: *"Görmək çətin deyildir ki,vaxtı ilə daha çox vüsətli epik lövhələrə, panoram, şaxəli təsvirə meyl etmiş nəsrin bizdə də əllinci illərin axırlarından başlayaraq janr ölçüləri və vərdişləri nəzərə çarpacaq dərəcədə dəyişmiş, yığcam romanlar, lirik-psixoloji və dramatik povestlərgeniş müvəffəqiyyət qazanmışdır"*[4]. Həqiqətən də, əvvəlki onilliklərdə böyük epik formalarda çox mühüm nailiyyətlər əldə edən Azərbaycan nəsri yeni mərhələdə monumental formalara aktiv müraciət etmədi, həmin formaların estetik kamilliyinə çatan nəsr 60-70-cıillərdə bu formalara yadlaşdı. O da maraqlıdır ki, milli nəsrin modernist düşüncə tərzi bədii tədqiqatın məcrasını gündəlik məişətə və adi adama yönəltməklə həm fərdə, həm də cəmiyyət miqyasında mənəvi-əxlaqi iflas, ictimai və sosial tənəzzül, böhran əlamətlərinə diqqəti vaxtında cəlb etdi. Ən əsası, bu nasirlər yalnız ən yeni, çoxmillətli avanqard nəsrin yox, həm də milli klassik irsin bədii ənənəsindən bəhrələnə bildilər. Xüsusən Cəlil Məmmədquluzadənin nəsr üslubu, psixoloji yığcamlıq, ən sərt satiranın da lirika ilə qaynağı, amansız "mətnaltı" həqiqətlər, üslub və dil demokratizmi bu zaman yenidən bədii dəyər kəsb etdi.

Yazıçı Elçinin yaradıcılığında modernist estetikanın Şərq ənənələrini görmək mümkündür. Onun "Mahmud və Məryəm" romanı

[4] Hüseynov, A. Nəsr və zaman / ‒Bakı: Yazıçı, ‒ 1980 , ‒ s.95

folklor və dastan poetikası ilə bilavasitə bağlı olan, dünya və gerçəklik haqqında fəlsəfi-psixoloji əsərdir. Bu əsərdə olan real və irreal zaman qovuşmasına rast gəlirik. Bu cür yanaşmaya Çingiz Aytmatovun "Gün var əsrə bərabər", Marsel Prustun "İtirilmiş zamanın axtarışında" əsərlərində də rastlaşırıq.

"Ağ dəvə" romanı isə öz polifonikliyi, çoxşaxəliyi ilə seçilən, "roman içində roman" təsiri yaradan intertekstual nəsr nümunəsidir. Əsərdə təsvir olunan obrazların mürəkkəb və sinkretik xarakterə malik olması mifik təfəkkürlə bağlıdır. Zaman anlamı bu romanda konseptual əhəmiyyətə malikdir: *"O uşaq gələcəkdə dayanmışdı və gələcəkdən görünən karvanı qarşılayırdı. Yola salan isə qalın daşların altından baxan iri və qara gözlər idi…Keçmiş o ağ dəvə karvanını yola salırdı"*[5]. Romanda gələcək haqqında bu simvolik sonluq əsərin daxili qayəsi olan daxili optimizmlə bağlıdır.

Əsərlərində Mirzə Cəlil ədəbi ənənələrindən, eyni zamanda "60-cılar" nəslinin təsirinin hiss olunduğu Orxan Fikrətoğlu Şərq-Qərb düşüncə tərzini müxtəlif aspektlərdə işıqlandıran modernist yazarlardandır. Onun "Ögey", "Ərəfə", "Neft Dadaş", "Çevrilmə" və s. hekayələri ironik simvol və detallar, təhtəlşüur oyunları və mətnaltı mesajlar ilə zəngin ədəbi nümunələr hesab olunur. Yazıçının "Tək" romanı absurd düşüncə tərzi ilə yazılmış, şəxsiyyətin düşdüyü dərin böhran halları haqqındadır.

Ümumiyyətlə, Şərq modernizmini, o cümlədən Azərbaycan modelini bir tip olaraq Qərb ekvivalentindən ayıran əsas fərqlərdən biri məhz sonluğun gələcəyə ümidlə bağlı olmasıdır. Söz yox ki, bir çox yazıçılar, o cümlədən Anar, Elçin, Afaq Məsud, Ramiz Rövşən, Elçin Hüseynbəyli, Orxan Fikrətoğlu və b. öz yaradıcılıqlarında Şərq və Qərb ənələrindən müxtəlif formalarda istifadə edirlər.

[5]Elçin. Seçilmiş əsərləri:[10 cilddə]. I cild çap nəşriyyatı, –Bakı: Çinar, , – c.1. – 2005. – s. 67

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır.[6,7,8]

Dissertasiya işinin ikinci fəsli **"Azərbaycan modernizminin təşəkkülü, inkişaf problemləri və özünəməxsusluğu"** adlanır və üç paraqrafdan ibarətdir. **"Modernizmin tipoloji xüsusiyyətlərinin Azərbaycan nəsrində təzahürü"** adlı ilk paraqrafda Azərbaycan modernizminin bir tip olaraq təşəkkülü və özünəməxsusluğundan bəhs edilir. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında, mətbuatında, ümumiyyətlə mədəniyyətində, incəsənətində və s. sahələrdə modern təfəkkürlə yaratmaq, yazmaq ənənəsi formalaşmışdı. Sovet sosializminin qurulması ilə bu tendensiyalar süquta uğradı, lakin 60-cı illərdən başlayaraq yenidən geriyə qayıdış və dünya modernizmindən bəhrələnmə prosesi baş verdi. İctimai gerçəkliyin mənəvi-əxlaqi qatlarına, şəxsiyyətin psixologiyasına artan maraq 60-80-ci illər Azərbaycan ədəbiyyatını bütünlükdə səciyyələndirir, onun ideya-bədii və estetik dəyərini, çəkisini artırır. İsa Həbibbəyli qeyd edir ki, "*Azərbaycan ədəbiyyatında milli-mənəvi özünüdərkə qayıdışın, davamlı və inkişaf edən prosesə çevrilməsində xalqımızın tarixi taleyində xüsusi rol oynamış Heydər Əliyev epoxasının başlanması müstəsna əhəmiyyətə malikdir*"[9]. Həqiqətən də, 60-80-cı illərə ötəri bir nəzər salanda cəmiyyətin mənəvi saflaşmasını, misli görünməmiş yenilikləri, istər elm, istər mədəniyyət, istər ədəbiyyat sahəsində görmək mümkündür.

60-cı illərin əvvəllərində XX əsr Azərbaycan ədəbiyyatı tarixində yeni mərhələ başlamışdır. Onu əvvəlki mərhələlərdən aşağıdakı xüsusiyyətlərlə ayırmaq olar:

---

[6] Əliyeva,D. Modernizmin fəlsəfəsi // IV İnternational Scientific Conference of Young Researchers, – Baku: Qafqaz University, –27-28 April, –2018, – s.1334-1336

[7] Əliyeva, D. Nəsrdə"şüur axını"nın analitik xarakteri // Elmi əsərlər, –Bakı: "Orxan nəşriyyatı", 2021. №3, –s. 32-36

[8] Əliyeva, D.Azərbaycan nəsri Şərq-Qərb modernizmi kontekstində // Axtarışlar, –Naxçıvan: "Tusi", 2022. – s. 176-182

[9] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələlər /–Bakı: "Elm", – 2019. – s. 64

– Sosializm dünyagörüşünün süqutunun başlanması ilə bağlı olaraq sovet, o cümlədən Azərbaycan cəmiyyətində yeni ideya axtarışlarının geniş yayılması, düşüncə, fikir alternativliyinin təzahürü və bunun nəticəsində Azərbaycan nəsrində modernizmin yaranması;

– Cəmiyyətin, dünyanın qlobal problemləri, məsələləri üzərində "düşünmək"dən tədricən imtina edilməsi, fərdiyyətçilik, sxematizm, insanın, fərdin daxili dünyasına maraq göstərilməsi, streotipləşmiş ənənəndən uzaqlaşma və həyata, insana yeni nəzər;

– Təsvirdə, təhkiyədə, dil-üslubda sərbəstliyə meydan verilməsi, neytral, artıq təsirliliyini itirmiş ədəbilikdən, ifadə normativliyindən qaçılması, eksperimentçilik və s.

– Bu xüsusiyyətlərə görə 60-cı illər Azərbaycan modernist nəsrini şərti olaraq "Yeni nəsr" adlandırırdılar. Bu ifadə özündən əvvəlki sovet nəsri ilə müqayisədə yalnız fərqləndirici əlamət kimi çıxış edə bilər. Xalis sosialist realizmi prinsipləri ilə yazılan əsərlərdə qəhrəmanlar adətən, fövqəladə şəxsiyyətlərdən, inqilabçılardan, məşhur xadimlərdən, müharibə qəhrəmanlarından və s. ibarət olurdu.

60-cı illərdən etibarən Sabir Əhmədli, Anar, Elçin, Yusif Səmədoğlu, Rüstəm İbrahimbəyov, Maqsud İbrahimbəyov kimi yazıçıların əsərlərində müasirlərinin mənəvi-psixoloji yaşantılarını geniş əks etdirən eksperemental məqamlar olduqca çoxdur. İnsanın ön plana keçməsi, mənəvi-əxlaqi məsələlərə diqqətin artması, "qeyri-qəhrəmanların" – adi, "kiçik" adamların təsvir obyekti seçilməsi, ictimai həyatın mənfiliklərinə cəsarətli müdaxilə və s. Bu öz növbəsində nəsrin yalnız mövzu-problematika və ideya-məzmun cəhətdən deyil, həm də forma-sənətkarlıq baxımından yeniləşməsi idi. Modernist romanın stukturunda müəyyən dəyişiklik baş verdi. Ənənəvi formaların dağılması yeni janrların meydana gəlməsi üçün zəmin hazırladı. Bədii forma (poetika) sahəsində lirizmin və psixologizmin öncül, aparıcı mövqeyə çıxması yeni nəsrin nailiyyəti hesab edilirdi. Bunun nəticəsidir ki, fərdiyyətçilik və psixoloji gərginlik romanın həcmini kiçiltdi, qısa hekayələr artdı.

**"Modernizm və ideologiya"** adlı ikinci paraqrafda modernizmin gətirdiyi yeniliyin sosializm normativləri ilə yaratdığı konflikt və ziddiyətləri anlamaq, cərəyanın böhranlı hallara meyli və daxili böhranlarla yaşayan sovet adamını əksetdirmə imkanlarını çözə

bilmək üçün ideologiya və modernizm problemini nəzəri cəhətdən araşdırmışıq. Pərvanə İsayeva haqlı olaraq qeyd edir ki, *“Modernizmin mahiyyətini anlamaq üçün onun ideoloji əsaslarına enmək lazımdır”*[10]. Sovet estetikasında modernizmə, insanları norma və yasaqlardan uzaqlaşdırdığı üçün, humanizmə zidd, pozucu bir ideoloji hadisə kimi baxılırdı. Belə hallarda XIX əsrin axırı, XX əsrin əvvələrindəki qeyri-realist cərəyanlara aid edilən dekadentliklə daha sonrakı dövrün qeyri-realist cərəyanlarına aid edilən modernizm eyniləşdirilirdi.

60-cı illərin əvvələrində sovet ədəbiyyatlarda, o cümlədən Azərbaycan ədəbiyyatında yeni bir mərhələ yarandı. Bu ədəbi-estetik hadisə idi və tam anlamı ilə ədəbi cərəyan formatına uyğun gəlirdi. 60-cı illərdə yaradıcılığa axınla gəlmiş yazıçılar bu prinsipləri əsərlərində ehtiva edə bilirdilər. Bu yazıçıların əsas fərqləndirici cəhətləri, yaradıcılıqlarında dünyaya öz baxışlarının, yeni ədəbi meyarların, mövzu və qəhramanların olması idi.

Modernizm bütün milli ədəbiyyatlarda özünəməxsus şəkildə təzahür etsə də, onun təməl prinsipləri əsas olaraq qala bilmişdir. Bu prinsiplərdən biri də mifologiyaya maraq, ilkinə qayıdış modernizmin bəyannaməsi hesab olunan Ceyms Coysun “Uliss” romanında görə bilərik. Azərbaycan ədəbiyyatında Yusif Səmədoğlunun, Mövlud Süleymanlının mədəni-genetik kodların ilkin başlanğıcı kimi ümumtürk miflərinə müraciəti əsərlərinin əsas keyfiyyətləri sırasında qeyd etmək olar.

60-cı illərdə ideologiyanın sərt məngənəsindən çıxmış modernist ədəbiyyatın ümumi xüsusiyyətləri: insana maraq, “yeni qəhrəman”yaratmaq cəhdi idi. Sovet dövrü qəhrəmanı cəmiyyətin, topluğnun önündə gedən bir qəhrəman idi. O, öncül, çalışqan, hərtərəfli, mükəmməl insanı təcəssüm etdirirdi. Əgər onun hansısa cüzi bir nöqsanı vardısa, proletar cəmiyyəti toplaşaraq bu nöqsanı aradan qaldırmağa toplu şəkildə müdaxilə edirdi. Modernistlər isə ədəbiyyata tamam fərqli bir insan gətirdilər, adi insan, bütün mənfi və müsbət xüsusiyyətləri olan sıradan adamlar.

---

[10] İsayeva, P. Modernizmin təşəkkülü və inkişafı. Ədəbiyyat nəzəriyyəsi, inkişaf mərhələləri və problemləri: [2 cilddə] / – Bakı: “Elmin inkişafı fondu”, – c.1. – 2018. – s.99

Məlumdur ki, tərəqqi, milli şüurun oyanışı və milli özünüdərk prosesinin yüksəlişində mətbuatın müstəsna yeri və əhəmiyyəti vardır. Mətbuat həm də, ideoloji bir vasitə kimi öz auditoriyasında şüur birliyi yaradaraq müəyyən bir axını ardnca aparmağa qabil bir formasiyadır. Bu illərdə Azərbaycan ədəbi-mədəni mühitinin mərkəzinə çevrilmiş "Qobustan" dərgisi, yaradıcı gəncləri, ziyalıları, sənətkarları öz ətrafına toplayaraq, dövrünün mədəni-estetik dəyərlərini formalaşdırmağa çalışan mətbu orqan olmuşdur.

**"90-cı illər Azərbaycan modernizminin inkişaf dinamikası və davam etdirdiyi ənənələr"** adlı üçüncü paraqrafda modernist ədəbiyyatın inkişafında ayrı-ayrı ədəbi şəxsiyyətlərin rolu, onların bu irəlləyişə verdikləri töhfələrdən bəhs olunur. 60-cı illərdə ədəbiyyata gələn Anar, Elçin, Afaq Məsud və başqa yazarların hər birinin 90-cı illər ədəbiyyatında özünəməxsus yeri və mövqeyi olmuşdur. Dərin müşahidə, hadisələri, insanları bütün təfərrüatı ilə öyrənmək və təsvir etmək bədii nəsr üçün ən zəruri şərtlərdən biridir. Bu baxımdan povest və hekayə janrının modernist ədəbiyyatda xüsusi çəkisi vardır. 90-cı illərdə hekayə və povest janrı yalnız məhsuldarlığı ilə deyil, həm də forma, məzmun və problematikası ilə yeni bir mərhələyə qədəm qoyur. Bu illərin nəsri ideoloji mübarizənin gərginliyi mühitinə görə də yeni çalarlar qazandı. Modernist qəhrəman üçün 90-cı illər xüsusi mühit yaratmışdı. Realist tiplərdən fərqli olaraq modernist əsərlərin baş qəhrəmanları cəmiyyətin bir üzvü olmaqdan boyun qaçırır və gerçəkliyin real mənzərəsini subyektiv açıqlamalarla əvəzləyirdilər. Həmin dövrdə Elçin absurd hekayələr yazmağa başladı, bu hekayələrdə yazıçı məramını ifadə etmək üçün formanın özündə struktur dəyişikliyi etdi. Elçin Qərb ədəbiyyatından gələn bu "dalğanı" olduğu kimi təkrar etmir, absurd poetikasına söykənərək Azərbaycan cəmiyyəti, ictimai həyatı haqqında fikirlərin yüksək bədii ifadəsinə nail olurdu. Yazıçının "Stalinin ölümü", "Su", "Aydınlıq gecələr", "Dünyanın bəxtəvəri" və s. hekayələri ədəbiyyatımızda insanın yeni sosial-tarixi səciyyəsinin dərkini formalaşdırmağa xidmət edir.

Anar da yaradıcılığında ekzistensialist insan modelini özunəməxsus şəkildə, bütün xırdalıqları ilə 90-cı illər yaradıcılığında da əks etdirmişdir. "Qırmızı limuzin", "Vahimə", "Otel otağı" əsərlərində düşüncə axını reallığın hüdudlarını aşaraq təhtəlşüurun

hakim olduğu sferalara çıxır. Məsələn, təkcə elə reallıqlardan qəhrəmanın yuxusuna qədər detallaşan “özünün olub özgələşmiş şəhər” – özgələşmə motivini qeyd etmək kifayət edər. Ekzistensializmin əsas tipoloji xüsusiyyətlərindən biri də özgələşməyə müqavimət, etirazdır. “Qırmızı limuzin” hekayəsinin gözəlliyi elə ondadır ki, müəllif oxucunu ilkin qatda – gerçəklərlə kifayət qədər duyumlandırıb, qəhrəmanın xarakterinin metaforik dərinliyinə aparır. “…Elə bil yağış da buluddan yox, keçmişdən yağırdı. Əbədi itirdiyi, həmişəlik qeyb etdiyi ötmüş günlərdən”[11]. Bu cür nostalji hisslərə ekzistensialist əsərlərdə tez-tez təsadüf olunur. Hekayədə modernist nəsrə xas bəzi simvolik detallar vardır.

Afaq Məsudun əsərlərində dünya ədəbiyyatının təsiri hiss olunurdu və Avropa ədəbiyyatında geniş yayılan ekzistensializm ədəbi təliminin müəyyən müddəaları əksini tapırdı. Onun yazıcı qələmi milli ədəbiyyatımızda indiyə qədər toxunulmayan, ilk baxışda gözə çarpmayan mövzulara toxunaraq, insan varlığının qapalı psixoloji dərinliklərinə yol açdı. Afaq Məsudun şəxsiyyətin tənhalığı, dörd divar arasında məhdudlaşan həyatın insan psixologiyasına təsirindən bəhs edən “Bekar” hekayəsində müəllifin feminist mövqeyi diqqəti cəlb edir. Afaq Məsud “II İohan” fəlsəfi-intellektual hekayəsi ilə psixoanalitik bacarıqlarını ortaya qoya bilmişdir. Mətndə müəllifin qurduğu struktur, dil, forma, üslub qatları diqqəti cəlb edir. Əsərdə təhtəlşüur elementlərindən, metaforik ibarələrdən geniş istifadə olunmuşdur. Hekayə adlansa da, arxitektonika parametrlərinə görə roman təsiri yaradan “II İohan” hekayəsində dramatik, psixoloji gərginliyi açmaq üçün “şüur axını” texnikasının imkanlarından geniş istifadə edilib.

Afaq Məsudun yaradıcılığında sürrealist boyalarla zəngin əsəri “Azadlıq” romanında insan və cəmiyyət problemlərinə özünəməxsus baxış sərgilənir. “İzdiham” romanında atasının şüuraltına, yaddaşına nüfuz edən qəhrəman əcdadları ilə tanış olur. Bu metoda biz, Elçin Hüseynbəylinin “Yovşan qağayılar” romanında da rast gəlirik. Qeyd edək ki, “Yovşan qağayılar” romanı gerçəkliklə təhtəlşüur arasında olan ziddiyyətlərə söykənməklə yazıçı fantaziyası əsasında yaradılmışdır.

---

[11] Anar. Əsərlər, hekayələr və povestlər / –Bakı: “Nurlan”, – 2003. – s.84

Modernist sənətin inkişafında müstəqillik dövrü Azərbaycan ədəbiyyatının xüsusi rolu olmuşdur. 90-cı illərdən etibarən yaranmağa başlayan avanqard ədəbi qruplar ədəbi gəncliyin prosesə fəal müdaxiləsinin bariz nümunəsi hesab oluna bilər. Bildiyimiz kimi, avanqard sənət modenizm epoxasının təzahürlərindən biridir və Azərbaycan ədəbiyyatında da özünəməxsus şəkildə inkişaf etmişdir. Rasim Qaracanın rəhbərlik etdiyi "Baca", Dəyanət Osmanlının "Avanqard", İbrahim İlyaslının "Dəniz", Qəşəm Nəcəfzadənin "Pərvanə", Bilal Alarlının "Nöqtələr", Elçin Hüseybəylinin "Eqo" və başqa bu kimi dərnəklərin ətrafında birləşmiş ədəbi gənclik estetik cəhətdən qlobal tələblər qoysalar da, ədəbi qrupların hər birinin manifesti məxsusi mətbu orqanlarda çap olunsa da, öz lokal arealı ilə məhdudlaşmış və bir müddət sonra fəaliyyətlərini dayandırmışdılar.

Beləliklə, ötən əsrin 60-80-ci illərində nəsrin mövzu-ideya və üslubu, "izm" estetikası dəyişmişdir. Bu mərhələnin davamı olaraq modernistlər 90-cı, hətta 2000-ci illərdə də özünəməxsus üslubları ilə iştirak edirdilər. Müasir müəlliflərin yaradıcılığından gətirilən konkret nümunələr modernizm ənənələrinin Azərbaycan ədəbiyyatında sorakı ədəbi mərhələlərdə də görünməsinin bariz nümünəsidir.

İkinci fəsildə qaldırılmış mövzular aşağıdakı məqalələrimizdə öz əksini tapmışdır.[12], [13],[14],[15],[16].

Dissertasiya işinin III fəsli **"Janrın imkanları və modernist nəsr"** adlanır və üç paraqrafdan ibarətdir. **"Modernizm və Azərbaycan romanı"** adlı ilk paraqrafda Qərb modernist romanın

---

[12] Əliyeva, D.Sovyet ihtilalı'nın modernist Azerbeycan edebiyyatına tesiri // IV Uluslararası Türk Kültür Coğrafiyasında Eğitim ve Sosyal Bilimler Sempozyumu, –Bakü: "Turkcess" – 2018, – s. 29-30

[13] Əliyeva, D. Müstəqillik dövrü Azərbaycan nəsrində milli özünəqayıdış problemi // Azərbaycanşünaslığın Aktual Problemləri VIII Beynəlxalq elmi konfransını, – Bakı: BSU, – 4-5 may, – 2017. – s.169-171

[14] Əliyeva, D. Anar yaradıcılığı ekzistensializm kontekstində // –Bakı: Poetika. İzm, – 2018. №1, – s.100-104

[15] Əliyeva, D. Modernizmin tipoloji xüsusiyyətləri və Azərbayacan nəsrində təzahürü // – Bakı: Elmi əsərlər, BSU, – 2019. № 1, – s. 179-191

[16] Əliyeva, D. Modernist ideologiyanın formalaşmasında "Qobustan" dərgisinin rolu // Karabagh İnternational Congress of Modern Studies in Socialand Human Sciences, – Bakı: "İKSAD", – 17-19 iyun, 2021, – s. 86

Azərbaycan romanına təsiri və milli roman janrımızın təkamülü haqqına danışılır.

Modernist romanın başlıca mövzularından biri fərdin özgələşməsi, fəlsəfi modernizmdə ifadə olunan həyat tərzinə uyğunlaşa bilməməsi və bunun nəticəsində də öz iç dünyasına çəkilməsidir. 60-80-ci illərdə roman janrında yazılan əsərlər nəsrin digər janrlarına nisbətən sayca azlıq təşkil etsə də, roman məsələsinə ədəbi-nəzəri münasibət öz aktuallığı və ziddiyyətli xarakteri ilə fərqlənirdi. Modernist romanların mahiyyətini aşağıdakı kimi sistemləşdirmək olar: fərdiliyin ön plana keçməsi; cəmiyyətdə yad olan bir insan obrazının meydana çıxması; klassik nəsrə qayıdışın baş verməsi; folklora müraciətin çoxalması; janr sinkertikliyinin təzahürü.

60-cı illərdə Anar, Elçin, Sabir Əhmədli, Mövlud Süleymanlı, İsmayıl Şıxlı, İsa Hüseynov və digər yazıçıların simasında yeni və çox maraqlı roman nümunələri yaranmağa başladı. Sosrealizmin süqutunun başlanması ilə bağlı olaraq sovet cəmiyyətində (o cümlədən Azərbaycan cəmiyyətində) yeni ideya axtarışlarının geniş yayılması, düşüncə, fikir alternativliyinin təzahürü və bunun nəticəsində Azərbaycan romançılığında müəyyən dəyişikliklər meydana gəlmiş, romanların həcmi tədricən kiçilməyə başlamışdır. Çoxgedişli süjet xətti roman janrında daxili psixoloji təsvirlərlə əvəz olunmağa başlamışdır.

Elçin ("Ağ dəvə"), Sabir Əhmədli ("Yasaq edilmiş oyun") Yusif Səmədoğlu ("Qətl günü"), Afaq Məsud ("İzdiham") və başqalarının modernist təcrübəyə söykənən romanları bu təcrübənin bir çevrədə qalmadığının, daim inkişaf etdiyinin sübutudur.

60-cı illlər modernist romanın aparıcı müəlliflərindən biri də Anardır. Anarın əsərlərində qəhrəmanların azadlığını təmin edən xüsusiyyətlər fərdlərin hərəkətləri, sərbəst seçimləri, onları əhatə edən cəmiyyətlə hesablaşmaması, əxlaq qaydalarına məhəl qoymaması kimi hallarda büruzə verir. "Beş mərtəbəli evin altıncı mərtəbəsi" əsərindəki Təhminənin nisbi azadlığı əslində azadlıq deyilən fəlsəfi-etik kateqoriyanın müddəalarından çox uzaqdır. Təhminə azad olmaq istəyir, buna cəhd də göstərir, lakin sədləri aşa bilmir, cəmiyyət onu addımbaaddım izləyərək məhv edir. Təhminə şəxsiyyətin cəmiyyətdəki roluna və özünüifadəsinə sərbəst, fərqli düşüncə ilə

yanaşır, insan qəlbinin həqiqətini əsl səadət sayaraq onu dünyada hər şeydən üstün tutur. Təhminə cəmiyyətçilik yox, fərdiyyətçilik qəhrəmanıdır. Obrazın psixoloji durumunu sözlə çatdırmaq, oxucunu gərgin psixoloji epizodlar məngənəsində sıxmaq Anar yaradıcılığı, həm də modernizm üçün səciyyəvidir.

Modernist romanın səciyyəvi cəhətlərindən biri də psixologizmlərin məhz bədiliyə xidmətidir. Bu baxımdan 60-cı illərin əvvələrindən etibarən yaradıcılığında sadə adamların hiss və həyəcanlarını, düşüncələrini poetik duyumla əks etdirən Sabir Əhmədlinin roman yaradıcılığı diqqəti cəlb edir. Öz tragik kinayəsi, sənədli təhkiyə və təhlil dramatizmi ilə "Qətl günü"nü davam etdirən "Yasaq edilmiş oyun" romanı məhz o "kirlikirliyin" məzmununu açmaq baxımından çox səciyyəvidir. Romanda qorxulu sosial oyunlar şux və nikbin oyunlara – xalq folklor mərasimlərinə satirik paralel və parodiya şəklində verilir və ona acı kinayəni ifadə edir.

60-cı illər Azərbaycan romanında araşdırılan modernist roman nümunələri göz önünə alındığında, insanın iç dünyasını, özgələşməsini anladan və buna uyğun şəkildə qurulan modernist romanların mövcud olduğu müddəasını irəli sürmək mümkündür. Modernist Azərbaycan romanında həcmin kiçilməsi, sadə struktur, situasiyaya yanaşmada qloballıqdan lokallığa eniş diqqəti cəlb edən cəhətlərdən hesab olunur. Poetika sahəsində psixologizmin aparıcı mövqeyə çıxması modernist roman yaradıcılığının nailiyyəti hesab edilə bilər.

**"Povest modernizmin aparıcı janrı kimi"** adlı ikinci paraqrafda modernizmin əsas prinsiplərindən olan sürət, intensivlik, ədəbiyyatın bütün janrlarında özünü göstərməyə başlasa da, povest yaradıcılığında daha çox müşahidə olunur. Bu janra xas təhkiyə imkanlarının daxili, təbii məntiqi bir-birini izləyir və modern milli povest ədəbi müşahidə üçün geniş meydan açır. Xəyali-fantastik poetikanın və ekssentrik təsəvvür oyununun, məxsusi "şəhər nəsri" adı ilə modernist Azərbaycan nəsrinə müdaxiləsinə biz daha çox Anarın, Maqsud İbrahimbəyovun, Rüstəm İbrahimbəyovun povestlərində şahid oluruq.

Anarın "Əlaqə" povesti tamam başqa bədii və psixoloji zəmində qələmə alınıb. Burada fantastika artıq şərti-oyunvari səciyyə daşımır,

"həqiqi", ciddi-dramatik xarakterdədir. Povestdə təsvir olunan şəhərin üzərinə çökmüş qatı, başgicəllədən bürkü kimi, bu fantastika da insanı tamamilə öz stixiyasına daxil etmək və öz qeyri-təbii ahəng və harmoniyasını ona aşılamaq istəyir. Povest təkliyin, "tənhalıq" adlanan ruhi vəziyyətin təbiətə zidd olmasından bəhs edir. Anarın "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" povestlərindəki Nemət, Zaur kimi obrazlar cəmiyyətlə deyil, öz prinsipləri ilə toqquşurdular, "cəmiyyət və azadlıq" onların daxilindən keçirdi. Nemətin də daxilində bu parçalanma mövcud idi, o, bir tərəfdən milli bir obrazdır, qeyrət, namus anlayışlarını özündə ehtiva edir, digər tərəfdən azad sevgi kimi hisslər onu rahat buraxmır.

Elçinin "Gümüşü furqon", "Qatar.Pikasso.Latur.1968", Sabir Əhmədlini "Qanköçürmə stansiyası" "Yamacda nişanə", Sabir Azərinin "Günəşə doğru gedəndə" povestləri fikrimizcə, bütövlükdə modernist Azərbaycan nəsrinin əhəmiyyətli uğurlarından sayılmalıdır.

**"Hekayələrdə modernist situasiya və insanın mahiyyəti problemi"** adlı üçüncü paraqrafda hekayə janrının modernist nəsrdə rolu və inkişaf xüsusiyyətlərindən bəhs olunur. Bu paraqrafda "mübariz janr" olan hekayənin modernist nəsrdə inkişaf meyilləri araşdırılır.

Elçinin "Bir görüşün tarixcəsi", "Dolça", "Bayraqdar", "Aman ovçu, vurma məni", "Mənimlə mən arasında", "Sarı pencək" kimi hekayələrində insan nəinki cəmiyyətlə toqquşur, həm də özündə özünü anlamağa çalışır.

Bu cür içində qərib olan insanlar çox vaxt cəmiyyətlə toqquşur. Belə insan çox əzablar çəkir, bəzən özünü itirir ("Dolça"), öz məğrur varlığından çıxıb, tör-töküntü ilə, kiminsə artığı ilə yetinməyə başlayır və bu hal getdikcə vərdişə çevrilir. "Sarı pencək" hekayəsində qəhrəman pencəkdən qurtulmaq istəyir, hamı deyir, nə qədər olar, əslində insanlar pencəklə bərabər onun xarakterinin də dəyişməsində israr edirdilər. Bu bir insanın faciəsini əks etdirir. Ən böyük faciə vərdişə dönmək, ("Sarı pencək") ondan xilas ola bilməməkdir. "Baladadaşın ilk məhəbbəti" əsərində adi bir insan və o insanın cəmiyyətlə qarşıdurması təsvir olunur. Cəmiyyətdə anlaşılmamaq, mahiyyət etibarilə sevgisinin tapdanması, alçaldılması böyük faciə idi.

Anar “Vaxt və taksi” , “Gürcü familyası” “Asılqanda işləyən qadının söhbəti”, “Dantenin yubileyi”, “Yaxşı padşahın nağılı” kimi hekayələrində sanki insana həm milli, həm ictimai, həm də siyasi baxımdan tamam başqa bir dəyər verilirdi, insan öz taleyi ilə toqquşurdu.

Tədqiqat işinin bu fəslində əldə olunmuş əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır.[17],[18],[19],[20],[21].

**Tədqiqat boyu əldə etdiyimiz nəticələri aşağıdakı müddəalarla təqdim edə bilərik:**

XX əsrin əvvərində yaranan modernizm ədəbi cərəyanı Birinci Dünya müharibəsindən sonra cəmiyyətin dərinləşən böhranının parlaq ifadəsi oldu. Modernistlər qəhrəmanlarının subyektiv dünyasını ön plana çəkərək, insanı mövcud olduğu ictimai mühitdən təcrid etməyə çalışır, onun qüsurlarını və təbiətindəki əzəli qeyri-mükəmməlliyi izah etməyə can atırdılar.

Avropadan dünya ədəbiyyatına yayılmış “şüur axını” Azərbaycan ədəbiyyatının da diqqətindən kənarda qalmamışdır. 60-cı illərdən başlayaraq, xüsusilə 80-ci illərdə nəsrimizdə “şüur axını”nın bədii formalar sırasına çıxması müşahidə edilir.

Anar, Elçin, Yusif Səmədoğlu, Elçin Hüseynbəyli, Orxan Fikrətoğlu  kimi yazıçılar öz yaradıcılıqlarında modenizmin  Şərq və Qərb ənələrindən müxtəlif formalarda istifadə edir və sovet ideologiyasının çərçivələri əleyhinə yönəldikdə isə SSRİ xalqları

---

[17] Əliyeva, D. Modernist romanın Azərbaycan nəsrinə təsiri //“Şəxsiyyət və cəmiyyət: qarşılıqlı əlaqə problemləri” VII Beynəlxalq elmi-praktik konfrans, –Ardahan: “Elger elm-təhsil mərkəzi”, – 25 sentyabr,  – 2020.  – s.36-39

[18] Алиева, Д.  Особенности азербайджанского романа периода модернизма // Baltic Research İnstitute of Transformation Economic AREA Problems, – Ukrain: “Baltija publishing” – 2021. – p. 224-230

[19] Əliyeva, D. Hekayə və povestlərdə modernist situasiya və insanın mahiyyəti // –Bakı: “Gənc tədqiqatçı” , – 2022. № 1,  – s. 195-199

[20] Əliyeva, D. Modernist romanın Azərbaycan modeli //– Bakı: Poetika.izm, –2021. №1, – s. 53-59

[21] Алиева, Д.  Коды модернистской эстетики (по мотивам творчества писателя Эльчина) //  Наука и образование в условиях цифровой трансформации, –Казанъ «ОНТ», –  2023.  – с.196-199

ədəbiyyatında yeni hadisə kimi üzə çıxan, formalaşan sovet məkanı modernistləri ( Ç.Aytmatov, V.M.Şuşkin, V.Q.Rasputin və b.) ilə mövqeləri kəsişirdi.

60-cı illərdə "Yeni nəsr" adı altında yaranan modernizm ədəbi cərəyanı bədii təfəkkürdə baş verən yenilik idi. Bu proses dünya ədəbiyyatında bu və ya digər şəkildə varlığını təstiq etmişdi. Ayrı-ayrı regionlarda, müxtəlif şəkildə adlandırılmışdır. Azərbaycan modernizmini yaradan ədəbi nəsil özündən əvvəlki illərin üslub buxovlarını qırmış, nəsrə yeni və rəngarəng üslublar gətirmiş, nəticədə 60-cı illərin əvvəllərində nəsrimiz müəyyən streotiplərdən xilas olmağa başlamış və müasiri olduğu dünya ədəbiyyatına qoşulmuşdu.

Aparılan tədqiqat zamanı aydın olmuşdur ki, modernist ədəbi-estetik düşüncə xarici təsvirçilikdən uzaqlaşaraq mənəvi-psixoloji dəyişikliyi, çıxılmaz vəziyyətlərin doğurduğu böhran hallarını ön plana çəkmişdir. İnsanın özgələşməsi, tənhalıq kimi problemlər modernistləri daha çox düşündürmüşdür.

Araşdırma zamanı diqqət çəkən məqamlardan biri də 60-80-ci illərdə modernizm ədəbi cərəyanının təsiri ilə Azərbaycan nəsrində yeni boyaların əmələ gəlməsidir. Bu nəsr artıq insanları "mənfi" və "müsbət" obrazlara bölmürdü. Bu nəsr təqlid üçün qəhrəman yaratmağa can atmırdı.

Modernizm ədəb cərəyanın təsiri altında bədii nəsrimizdə aşağıdakı yeniliklər baş verdi:

–fərdiyyətin önə keçməsi;

– cəmiyyətdə yad olan, onunla uyuşmayıb daxilinə qapanan, öz-özü ilə dialoqda olan qəhrəman obrazının meydana çıxması;

–klassik nəsrə yeni tərzdə qayıdışın baş verməsi;

–zaman və məkan çoxplanlılığında folklora müraciətin çoxalması;

–janr sinkertikliyinin meydana çıxması.

Anar, Elçin, Sabir Əhmədli, Yusif Səmədoğlu, Rüstəm İbrahimbəyov, Maqsud İbrahibəyov, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Afaq Məsud kimi müəlliflər əsərləri ilə sosrealizmin qəlibindən kənara çıxa bildi. İnsanı bütünlüklə təsvir edən modernizmin başlıca prinsipi olan irrasionallığı bu müəlliflərin əsərlərdə görmək mümkündür.

Modernist nəsrin digər keyfiyyətləri ilə müqayisədə insan amilini bədii tədqiq obyekti seçməsi diqqəti cəlb edir. Yeni tipli qəhrəmanın təsvirində ilk növbədə ənənəvi ölçülərin tədricən "əriyib" yox olduğu, sıravi adamların daxili-mənəvi dünyasının təhlil predmetinə çevrildiyini müşahidə edilir.

Modernist əsərlərin ən səciyyəvi meyarları qeyri-adi, yolverilməz halların təsvir və təqdimidir. Ənənə və normalara tabe olmamaq kimi üslubi maneraları göstərmək modernizm ədəbi cərəyanının əsas prinsiplərindən hesab olunur.

1960-80-ci illərdə Azərbaycan nəsrinin dünya nəsrinə inteqrasiya perspektivi qazanması, nəsrin problemlərinin təhlil prosesində nəzəri səviyyəsinin yüksəlməsi, onun dünya ədəbi-nəzəri fikrinin aparıcı tendensiyalarını mənimsəyib tətbiq etməsi Azərbaycan nəsrində modenizm ədəbi cərəyanın yaranması ilə nəticələnir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Müstəqillik dövrü Azərbaycan nəsrində milli özünəqayıdış problemi // Azərbaycanşünaslığın Aktual Problemləri VIII Beynəlxalq elmi konfransını, – Bakı: BSU, – 4-5 may, – 2017. – s.169-171
2. Modernizmin fəlsəfəsi // IV İnternational Scientific Conference of Young Researchers, –Baku: Qafqaz University, –27-28 April, –2018, – s.1334-1336.
3. Sovyet ihtilalı'nın modernist Azerbeycan edebiyyatına tesiri // IV Uluslararası Türk Kültür Coğrafiyasında Eğitim ve Sosyal Bilimler Sempozyumu, –Bakü: "Turkcess" – 2018, – s. 29-30
4. Modernizmin ədəbi-estetik prinsipləri // – Bakı: Filologiya məsələləri, –2018. № 18, – s. 189-195
5. Anar yaradıcılığı ekzistensializm kontekstində // – Bakı: Poetika. İzm, – 2018. №1, – s.100-104
6. Modernizmin tipoloji xüsusiyyətləri və Azərbayacan nəsrində təzahürü // – Bakı: Elmi əsərlər, BSU, – 2019. № 1, – s. 179-191

7. Modernist romanın Azərbaycan nəsrinə təsiri //"Şəxsiyyət və cəmiyyət: qarşılıqlı əlaqə problemləri" VII Beynəlxalq elmi-praktik konfrans, –Ardahan: "Elger elm-təhsil mərkəzi", – 25 sentyabr, – 2020. – s.36-39
8. Особенности азербайджанского романа периода модернизма // Baltic Research İnstitute of Transformation Economic AREA Problems, – Ukrain: "Baltija publishing" – 2021. – p. 224-230
9. Nəsrdə"şüur axını"nın analitik xarakteri // Elmi əsərlər, –Bakı: "Orxan nəşriyyatı", 2021. №3, –s. 32-36
10. Modernist romanın Azərbaycan modeli //– Bakı: Poetika.izm, –2021. №1, – s. 53-59
11. Modernist ideologiyanın formalaşmasında "Qobustan" dərgisinin rolu // Karabagh İnternational Congress of Modern Studies in Socialand Human Sciences, – Bakı: "İKSAD", – 17-19 iyun, 2021, – s. 86
12. Hekayə və povestlərdə modernist situasiya və insanın mahiyyəti //–Bakı: "Gənc tədqiqatçı" , – 2022. № 1, – s. 195-199
13. Azərbaycan nəsri Şərq-Qərb modernizmi kontekstində // Axtarışlar, –Naxçıvan: "Tusi", 2022. – s. 176-182
14. Коды модернистской эстетики (по мотивам творчества писателя Эльчина) // Наука и образование в условиях цифровой трансформации, – Казанъ «ОНТ», – 2023. – с.196-199

Dissertasiya işinin müdafiəsi 13 oktyabr 2023-cü il tarixində saat 15⁰⁰ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı ş., Hüseyn Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 sentyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:14.06.2023

Kağızın formatı: 60x84

Həcm: 42124

Tiraj: 100